# İRƏLİLƏYİŞ RAZILIQ DOĞURUR

Son illərədək Ağsu Rayon Mədəniyyət Şöbəsinin adı bir qayda olaraq həmişə danlanan, irad tutulan kollektivlər sırasında çəkilirdi. Və...

Və birdən-birə sanki möcüzə baş verdi. Şöbənin işində dönüş yarandı. Maraqlı burasıdır ki, bu irəliləyiş kadr dəyişikliyi aparılmadan oldu. Fərəhlidir ki, bu iş tərzi artıq bir ənənəyə çevrilir. Şöbə müdiri Kəmalə xanım Xanməmmədova ilə söhbət zamanı bir daha buna əmin olduq.

-Son vaxtlar rayonumuzda mədəniyyətin inkişafına, əhalinin mədəni səviyyəsinin yüksəldilməsinə və asudə vaxtın səmərəli təşkilinə diqqət xeyli artırılmışdır. Hazırda rayon əhalisinə 10 Mədəniyyət evi (işçilərinin sayı 39 nəfər), 19 kənd klubu (işçilərinin sayı 38 nəfər), 47 kitabxana (işçilərinin sayı 70 nəfər), 1 yeddiillik uşaq musiqi məktəbi (işçilərinin sayı 79 nəfər), 1 tarix-diyarşünaslıq muzeyi və 4 abidə mühafizəçisi (işçilərinin sayı 13 nəfər) xidmət edir. Rayon icra hakimiyyəti başçısı Əflatun Rufuyevin mədəniyyətə qayğısı nəticəsində mədəniyyət sarayı, tarix-diyarşünaslıq muzeyi, yediillik uşaq musiqi məktəbi əsaslı surətdə təmir olunmuş və zəruri avadanlıqlarla təchiz edilmişdir. Rayon mədəniyyət şöbəsi, MKS, rayon mədəniyyət evi və bir sıra mədəni-maarif müəssisələrində aparılan təmir işləri haqqında da eyni sözləri söyləmək olar. Bütün bunlar bizi daha yaxşı işləməyə, öz işimizi günün tələbləri səviyyəsində qurmağa sövq edir. Belə ki, illik iş planları və tədbirlər planı əsasında hər bir işçiyə konkret tapşırıqlar verilmiş, işin icrasına nəzarət gücləndirilmişdir. Bundan başqa mədəniyyət şöbəsinin fəaliyyəti vaxtaşırı olaraq rayon icra hakimiyyəti başçısı yanında şurada müzakirə edilmiş, işimizdə olan nöqsanlar qeyd olunmuş və bu nöqsanların aradan qaldırılması üçün konkret yollar göstərilmişdir. Şura iclasında qəbul edilmiş qərarların icrası daimi nəzarətdə saxlanılmış, müvafiq tədbirlər görülmüşdür. İşinin öhdəsindən gələ bilməyən, əmək intizamına əməl etməyən bir neçə mədəni-maarif işçisinə müxtəlif cəzalar verilmişdir.

Bu gün mədəniyyət işçilərinin ən vacib və başlıca fəaliyyəti hərbi-vətənpərvərlik tərbiyəsi ilə bağlıdır. Çağrışçı gənclər qarşısında mədəniyyət və incəsənət ustalarının çıxışları, mədəni-maarif müəssisələrində, o cümlədən kitabxanalarda milli qəhrəmanlarımız, şəhidlərimiz, görkəmli sərkərdələrimiz haqqında təşkil olunmuş tədbirlər, guşələr, sərgilər, fotostendlər, bu mövzuda çap olunmuş yeni kitab və nəşrlərin təbliği bu qəbildəndir. 2005-ci ildə bu məqsədlə alınan kitabların yazılışı-








nın kəmiyyəti xeyli ar
mışdır. Bütün bunla
təbliğat işində böyü
rol oynayır.

Keçirilən hər bi
mədəni-kütləvi tədbi
rin maraqlı olmas
üçün əvvəlcədən təd
birlər planı tutulmuş
dur.

20 Yanvar, Xocal
faciəsi, Gənclər günü
Novruz və Qurban bay-
ramları, Faşizm üzərin-
də qələbənin 60 illiyi
Respublika günü, Mill
Qurtuluş günü, Silahl
Qüvvələr günü, Müstə-
qillik günü, Konsti-
tusiya günü, 31 De-
kabr-Dünya Azərbay-
canlıların Həmrəylik
günü və Yeni il münasi-
bəti ilə əlaqədar ədəbi-
bədii gecələr, kompozi-
siyalar, kitab sərgiləri,
məruzə və mühazirələr
təşkil olunmuşdur.

Etiraf etməliyik ki,
işimizdə nöqsanlar da
var. Gələcək fəaliyyəti-
mizi ilk növbədə bu ça-
tışmazlıqların ləğvi isti-
qamətinə yönəldəcə-
yik.

*Tural*